# Gecəsi üstünə çökmüş səhərəm...



***

Gözlərimlə yeriyib
sənə tərəf gəlirəm.
Bir az ömrü sağa çək,
görünür səhv gəlirəm.

İndi necə yaşayım
mən bu xəstə ömrümü...
Uzanmışam altına
ağzı üstə ömrümün.

Sanki, ölməyə gəlir
doğulanlar şəhərə...
Bir qram ümid də yox,
yol alasan səhərə.

Təngiyirəm bitmir ki,
yığıb məni lap cana.
...Bu ömür yaşamağa
bir az uzundur, Ana!

***

Sənli xatirələr ocaq yeridir...
Getsəm,üşümərəm qışa bu gündən.
Ömrümə gözucu bir hasar çəkin,
tutun taleyimi daşa bu gündən.

Nə bir toy tutmuşam ,nə toyum olub...
Səndən gizləmək də bir oyun olub.
İlahi,ölümlə qol-boyun olub,
gəlirəm yanına qoşa bu gündən.

Mən səndən yapışım,sən məndən asıl...
Qoy bizə tutsunlar indidən yası.
Girib ürəyimə sinəmdən asıl,
ya da dön gözümdə yaşa bu gündən.

Sındır saçlarını et çilik-çilik...
Sonra da gözünü yollarıma tik.
Mən çıxıb gedirəm səndən ömürlük,
sən də get bir yolluq yaşa bu gündən...

***

Qapısı yox belə, çıxıb getməyə,
hayana baxırsan, divar görünür.
...Hardasa bir səsə qaçıb gedirəm,
hardasa dalımca ölüm sürünür.

Bir adam qoxusu dəymir divara...
Sanki, pəncərələr yelə açılır.
...Burda küləyin də səmti bilinmir,
burda qapılar da çölə açılır.

Bilmirsən gün çıxıb, yoxsa gecədir...
Bu boyda otaqda baca tapılmır.
Min ildir içəridən qapı döyürəm...
Hələ də bir gəlib, açan tapılmır.

***

Gecəsi üstünə çökmüş səhərəm...
Bir daha qızarmaz dan yeri məndə.
Səni axtarmağa gedirəm, gülüm,
axtarma tapmazsan can yeri məndə.

Özümdən içəri gedirəm, çəkil!
Əriyib qanıma qarışım təki...
Sən də gəl üstümdə elə ağla ki,
zərrə də qalmasın qan yeri məndə.

Qarışıb gecəyə çəkdiyim bu ah...
Yaman çox gecikir bu gələn sabah.
Sənə də bir canlıq borcum var, Allah!
Onu da gəl alıb yan yeri məndən.

**Müşfiq Cəbi**